# Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği

### NƏSİMİ İLİ - ƏDƏBİYYAT İLİ

XXI əsr sürət əsridir, yanında dayandığın nəsnə bir anda səndən uzaqlaşır, yaxud bir anda sən yanında dayandığından kənarlaşırsan. Bu əsrdə çox şey sanki, bir göz qırpımında baş verir. XXI əsrdə klassiklərə qayıdış, onlara yenidən müraciət bizi, sürətdən yaxşı mənada uzaqlaşdırır və dünyaya aramla, sakit, təmkinli baxmağa, tələsən zamanla birgə axıb yox olmamağa sövq edir.

Orta əsrlər bəşəriyyət tarixinin ən maraqlı dövrlərindəndir. Çünki Orta əsr artıq dini inkişafın yekunlaşdığı, sabitləşdiyi bir dövrdür, insanların əqidələrinin möhkəmləndiyi, şüursuz müharibələrin səbəbli müharibələrlə əvəzləndiyi, mədəniyyətlərin ayrılması prosesinin ümumən başa çatdığı çağdır. Əlbəttə, orta əsrlə bağlı bu cür məsələlər ədəbiyyata da təsir edirdi və ona görə də Orta Əsr Şərq ədəbiyyatı artıq konsepsiyalı yaradıcılıqların, əqidə müəlliflərinin yetişdiyi bir dövrdür. Orta əsrlərdə zaman axırdı, insansa, elə bil, dayanmışdı, indi isə sanki, zaman insanla birgə hərəkət edir. Müasir insanın konsepsiyaya qayıtmaq, aramla düşünmək, öz varlığını zamana qurban verməməsi üçün orta çağın bəzi reallıqlarına, ən əsası şəxsiyyətlərinə dönüşü labüddür. Bu, özü-özlüyündə mənəvi məsələlərə - ruha qayıdış deməkdir. Prezident İlham Əliyevin 2019-cu ili Nəsimi ili - ədəbiyyat ili elan etməsi olduqca dəyərli addımdır. Ədəbiyyatın inkişafına təkan verən, ölkəni sözə, şeirə, sənətə köklənməsinə gətirib çıxaran amildir.

2015-ci il Rusiyada ədəbiyyat ili elan edilmişdi. Həmin vaxt mən Sankt-Peterburqda idim və kitab sərgisinə qatılmışdım. Metrolara belə kitab rəfləri qoyulmuş, şəhər başdan-başa ədəbiyyat şüarları ilə bəzədilmiş, ölkə çoxsaylı ədəbiyyat tədbirlərinin meydanına çevrilmişdi. Açığı, onda belə bir məsələnin reallaşmasını ölkəmiz üçün arzulamışdım, yaxşı mənada Rusiyaya qibtə etmişdim. Aradan cəmi dörd il keçdi ki, bizim ölkəmiz də Nəsimi ili elan edildi və bir il boyunca Nəsiminin 650 illik yubileyi bayram kimi qeyd ediləcək.

### ANLAYIŞ ŞAİRİ - NƏSİMİYYƏT

Nəsimişünaslığın qarşısında dayanan əsas vəzifələrdən biri də Nəsimini anlayış şairi kimi təqdim etməkdir. Təbliğatın bu istiqamətini qətiyyən boş qoymaq olmaz. Dünya ədəbiyyatında müəlliflərin, yaxud əsərlərin anlayışa çevrildiyi çox olub. Məsələn, "Tolstoyçuluq" anlayışı var. "Tolstoyçuluq" dini ideyaları həyatı ideyaların içərisindən keçirərək "İncil" motivlərini real həyata - mənəviyyata təbliğini əsas götürən anlayışdır. Yaxud müəlliflərin yox, əsərlərin anlayışa çevrilməsi faktı var: Məsələn, "Don Kixotluq". "Don Kixotluq" anlayışı yaxşı və pis mənalarda işlədilir. Bu anlayış həm kor-koranə inamı, mənasız əzmi, dırnaqarası qəhrəmanlığı, həm də dünyanın puçluğunu dərk etməyi, cahanın döyüş meydanına çevrilməsinin cəfəngliyini, sülhün, əminamanlığın fani insan ömrünün mənasını ifadə etməyi simvolizə edir. Yaxud "Məcnunluq "anlayışı. "Məcnunluq" yar sevgisinin Allah sevgisinə çevrilməsini, insanın sevərək ucalmasını, kamilləşməsini, sevginin mahiyyətini sevdiyin adamdan daha çox sevginin özündə tapılmasını xarakterizə edir. Yaxud "Napoleonluq" anlayışı. Bu anlayışın tərəfdarları və əleyhdarları var, amma hər ikisi mahiyyət ifadəçiləri sayılır. "Napoleonluq" anlayışının təbliğatçıları (Dostoyevski) dünyada ancaq güclülərin hakimiyyətini dəstəkləyən, zəiflərin varlığını inkar edənlərdir. Bu anlayışın əleyhdarları (Tolstoy) isə gücün də bəşəriyyətə xidmət etməsini, dünyada xeyri çoxaltmağa vasitə olmasını qeyd edirlər. Nəsiminin şəxsiyyətini də bu cür - anlayış kimi təbliğ etmək olar. Çünki onun yaşadığı dövr, həyatı, əqidəsi bir anlayış kimi təqdim olunmalıdır. Nəsimilik dönməzliyin, sınmazlığın, azadlığın, azad sözün qarşısıalınmazlığının simvolu kimi təqdim edilə bilər. Nəsimilik bir anlayış kimi təqdim olunsa, həm də bədii-estetik kateqoriya kimi də şöhrət tapa bilər. Nəsimin ölümündən sonra, əslində, belə bir anlayış az da olsa mövcud olub və "Nəsimiyyət" adlanıb. Lakin təəssüflər olsun ki, geniş vüsət almayıb. Ayrı-ayrı vaxtlarda bu anlayışa fraqmentar şəkildə toxunulub. Gərəkdir ki, bu anlayış geniş yayılsın və təbliğ olunsun. Əgər "Nəsimiyyət" anlayışı geniş miqyasda təbliğ olunsa, ədəbiyyatşünaslar tərəfindən bu məsələyə hərtərəfli meydan verilsə, bu, Nəsimi İlində görülən dəyərli işlərə bir töhfə olar.

Bundan başqa, "Nəsimiyyət" bir üslub kimi də zaman-zaman qiymətləndirilib, şairin özünəməxsus düşüncələri, şeirlərinin simvolları, fikirlərin fərqliliyi bu anlayışın həm də yaradıcı əsasını formalaşdırıb. Məsələn, Aşıq Çələbi Şeyx İbrahim Gülşəni tərəfdarlarına aid edilən "ilhad toxumu"nu ilk olaraq Üsulinin Ruma gətirdiyini bildirir: "Şeyx İbrahimilərə isnat olınan ilhat tohmın Rumda əvvəl o əkmişdür və nəsimiyyat türəhatından gətürdiyi nihali-nihadi-dəlali ol dikmişdür". Bu kontekstdə Nəsimiyyət anlayışı Nəsiminin hürufi dünyagörüşünün əsərlərindəki təcəssümü kimi qavranılır.

### ŞEİRİN ÜÇ QAPISI

M.F.Köprülünün Nəsimiyə aid "Füzuli də daxil olmaq üzrə bütün azəri şairləri iki əsr onu kəndilərinə müqtəda bildilər" sözləri şair haqqında çox fikirlərin açılmasına imkan verir. Nəsimi yaradıcılığının yorulmaz tədqiqatçısı Səadət Şıxıyeva qeyd edir ki, onun farsdilli şeirlərinin nüfuz dairəsi Azərbaycan, İran, Tacikistan, Əfqanıstan və Hindistanı əhatə edirdi. Əlbəttə, bütün bunlar göstərir ki, şairin əqidəsinin, yaradıcılıq yolunun anlayışa çevrilməsi üçün kifayət qədər ardıcılları, onun yaradıcılığına diqqətlə yanaşanlar var imiş. Nəsiminin ərəbdilli ədəbiyyatda da müəyyən təsirə malik olması danılmazdır. Nəsimi ərəbcə də şeirlər yazıb, eyni zamanda onun yaradıcılığının ərəb şairlərinə təsiri ilə bağlı Əndəlib yazır: "Belə ki, qədim zamanlarda Seyid Nəsimi deyə tanınan bir hörmətli insan yaşamışdır. Bəzi şeirləri ərəb dilində idi. Türk dilinə nəql edib, neçə günlər çalışaraq və sıxıntılar çəkərək nəzmə çəkməyə cəhd göstərib, cəmadüssani ayında on birinci günü tarixində yazmağa başladım". Nəsimiyə Qazi Bürhanəddin, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli də nəzirələr yazıblar. Göründüyü kimi, onun şeirləri üç qapıdan - ərəb, fars və türk dilindən nüfuz etməyi bacarıb. Onun şeirlərinin coğrafi ərazisi - yayıldığı məkan olduqca böyükdür. Orta əsrlərin mənbələrində Nəsimi heç zaman unudulmur, daim xatırlanır. Onun adı heç zaman ədəbiyyatın kölgəsində qalmayıb, daim imzası ilk ağla gələnlər arasında olub.



### SÖZÜN MÜQAYİSƏSİ

Nəsimi yaradıcılığı haqqında yazılan elmi əsərlərin bir çoxunda onun insanı kamillik mərtəbəsinə qaldırması, insanı daha yüksək rütbədə qəbul etməsi məsələsi dönə-dönə vurğulanır. Fəqət unutmaq olmaz ki, Nəsimi yaradıcılığında ən yüksək qiymətlərdən biri də sözə verilən dəyərdir. Söz hərflərin cəmindən - birləşməsindən yaranır, hürufi düşüncəsinə görə insan da sözlərin cəmindəndir və bu da o mənanı ifadə edir ki, insan da sözdür.

*Dinləgil bu sözü ki, candır söz,*
*Aliyü asiman məkandır söz.*

*Şeş cəhətdən münəzzəh anlavü var*
*Şöylə kim, xaliqi-cahandır söz.*

*Nazilü münzil anla kim, birdir,*
*Kəndi kənduyə tərcümandır söz.*

Nəsimi dünyanın Yaradanın ("Ol" kəlməsi) - Allahın sözü olduğunu vurğulayır. "Xaliqi-cahandır söz" - dünyanı yaradandır, söz deyir.

*İsiyi-pak, Ədəmü-Əhməd,*
*Mehdiyi-sahibəz-zəmandır söz,*

*..."Cavidanmə"ni gətirgil ələ,*
*Ta biləsən ki, nəsnə-candır söz*

Nəsimi sözü xilaskar kimi görür, onu sabahın müjdəçisi kimi təqdim edir. Belə ki, "Cavidannamə"ni nişan verərək "nəsnə-candır söz" deyir. Yəni canın - insanın söz olmasının mənbəyini göstərir. Füzulinin söz rədifli qəzəlində vurğulanan fikri yada salaq:

*Artıran söz qədrini sidqilə*
*qədrin artırar,*
*Kim, nə miqdar olsa, əhlin eylər*
*ol miqdar söz.*

Füzulinin düşüncəsinə görə sözün mahiyyəti onu anlayan, dərk edən qədərdir. Söz insanı onu dərk edən qədər böyüdə, ucalda bilər. Oxşar fikrə Nəsiminin qəzəlində də rast gəlmək olur:

*Bu bəyanı diləməyi anlayasan*
*Kim, necəsi filan-filandır sözü.*

Professor Gülşən Əliyeva yuxarıdakı qəzəllərin müqayisəsini belə əsaslandırır: "...Füzuli sözün yoxdan var olması qənaətinə gəlir. Əli əleyhissəlam deyib ki, "Hər kəs öz dilinin altındadır". Ona görə də Füzuli deyir ki, kimin səviyyəsi, istedadı nə dərəcədədirsə, onun özü də həmin səviyyədədir. Nəsimi kimi Füzuli də sözün qüdrətini Allahın qüdrətinə bərabər tutur. Hər iki sənətkar tarixin müxtəlif zaman kəsimində yaşayıb-yaratmalarına baxmayaraq, sözü müqəddəs saymış, onun nüfuzunu daim cəsarətlə, inamla qorumuş, "sözü gözəlinin nazını çəkməyi" şairlərin vəzifəsi hesab etmiş, sözü ilahi mənasında qoruyub saxlamaqla dünya şöhrəti qazanmışdır. Orta əsrlər bədii poetik sistemində Nəsimi və Füzuli biri digərini tamamlayan iki mərhələdir".

Nəsimi sözün bütün kainatın cəmi, mahiyyəti, sirri kimi təqdim edir:

*Zahiri batin, əvvəlü axir,*
*Aşikarvü həm nihandır söz*

Sözləri deyirik, o zaman onun ilkin mənası anlaşılır, amma sözün içərisindəki, nüvəsindəki məna da var və əsas hikmət - ilahi mahiyyət orada gizlənib. Necə ki, insan bizim bildiyimiz real dünyadan ibarətdir, eləcə də axirət evi var - yəni başqa bir dünya. Sözün də real (aşkar) və irreal (sirli) dünyası var. Sözü anlamaq üçün gərək hər iki dünyadan xəbərdar olasan, dünyanı bütöv görə biləsən. Sözü tanımaq dünyanı tanımaq deməkdir...

**P.S. Məqalə Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu bu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar keçirdiyi birgə fərdi jurnalist yazıları müsabiqəsinə təqdim edilir.**

**Fərid Hüseyn**